**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№377/2** **13 iyun 2025-ci il**

# "Az Mürəkkəb Müssisələrin Maliyyə Hesabatlarının Auditləri" üzrə Beynəlxalq Audit Standartına dair şərh barədə

“Azərbaycan Respublikasında auditor fəaliyyətinin inkişaf konsepsiyasına” (2021-2030-cu illər) uyğun olaraq və Azərbaycan Respublikası Auditorlar Palatasının 2025-ci il üzrə iş planının 1.2.8-ci “Az Mürəkkəb Müəssisələrin Maliyyə Hesabatlarının Auditləri üzrə” Beynəlxalq Audit Standartına dair şərhin hazırlanması” bəndinin icrası ilə əlaqədar Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov tərəfindən hazırlanmış metodoloji materialın layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Az Mürəkkəb Müəssisələrin Maliyyə Hesabatlarının Auditləri üzrə” Beynəlxalq Audit Standartına dair şərh bəyənilsin (əlavə olunur).
2. Auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara tapşırılsın ki, öz fəaliyyətlərində “Az Mürəkkəb Müəssisələrin Maliyyə Hesabatlarının Auditləri üzrə” Beynəlxalq Audit Standartının tətbiq edilməsini təmin etsinlər.
3. Kadr hazırlığı idarəsinə (E.Hacıyeva) tapşırılsın ki, “Az Mürəkkəb Müəssisələrin Maliyyə Hesabatlarının Auditləri üzrə” Beynəlxalq Audit Standartına dair şərh 2025-ci il üzrə auditorların ixtisasartırma kursunun tədris proqramına daxil edilsin.
4. Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, iki həftə müddətində bu qərarın və “Az Mürəkkəb Müəssisələrin Maliyyə Hesabatlarının Auditləri üzrə” Beynəlxalq Audit Standartına dair şərhin Auditorlar Palatasının üzvlərinə göndərilməsi və Palatanın internet səhifəsinin “Beynəlxalq Audit Standartları” bölməsində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**